BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2007*

## METODİKA

# ALİ MƏKTƏBLƏRDƏ «MİLLİ AZADLIQ HƏRƏKATI» MÖVZUSUNUN TƏDRİSİ TƏCRÜBƏSİNDƏN

**B.O.ƏZİZOV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan tarixinin uzun illər öyrənilməyə və tədris edilməyə imkan verilməyən mövzularından biri milli-azadlıq hərəkatı olmuşdur.

Sovet hakimiyyəti illərində milli-azadlıq hərəkatını pantürkizm, panislamizm, bəy və xanların mənafeyini müdafiə edən antixalq cərəyan, onun görkəmli nümayəndələrini isə Türkiyə, İran və digər dövlətlərin əlaltıları, proletar beynəlmiləlçiliyinə zərər vuran, insanları millətçiliklə zəhərləyən adamlar kimi cəfəng sözlərlə ittiham etmişlər. Bu səbəbdən tələbələrə milli azadlıq hərəkatı probleminin tədrisinin elmi-siyasi, həm də böyük tərbiyəvi əhəmiyyəti vardır. Təcrübə göstərir ki, dərsə başlayarkən auditoriyaya belə bir sualla müraciət etmək məqsədəuyğundur: Sizin fikrinizcə bu mövzunun tərbiyəvi əhəmiyyəti nədən ibarətdir. Bu sualın cavabını bir neçə tələbədən soruşarkən, bir tərəfdən dərsdə tədrisin keyfiyyəti üçün vacib olan əks əlaqə yaranmış olur. Digər tərəfdən belə üsul tələbələrin diqqətini, onların fikir və düşüncələrini bu istiqamətə yönəldir. Bundan sonra mövzunun planı və ədəbiyyatı verilir. Təcrübə və elmi ədəbiyyatların təhlili göstərir ki, mövzunun planı aşağıdakı kimi, verilsə daha yaxşı olar:

1. Problemin tarixşünaslığı və dövrləşdirilməsi.
2. Milli-azadlıq hərəkatını doğuran amillər.
3. Maarifçilik hərəkatının, realist ədəbi məktəbin və romantizm cərəyanının milli oyanışa təsiri.
4. Milli-azadlıq hərəkatında əsas cərəyanlar və onların başlıca prinsipləri.
5. «İttifaqi-müslümin» partiyası və Azərbaycan milli hərəkatı ilə onun bağlılığı.
6. «Difai» partiyası və milli oyanışa onun təsiri.
7. «Müsavat» partiyasının yaranması. Milli idealın gerçəkləşməsində onun yeri və rolu.

Qeyd edim ki, mövzu geniş olduğu üçün onu dörd və ya altı saat keçmək daha yaxşı olar. Tələbələrə problemin aktuallığı, tədqiq, tədris və təbliğ edilməsinin səbəblərini izah etdikdən sonra milli-azadlıq hərəkatının tarixşünaslığı və dövrləşməsini başa salıram.

Uzun illərin təcrübəsi göstərir ki, tələbələrə dövrləşmənin aparılması zəruriyyətini izah etmək onlarda problemə yanaşma metodu haqqında daha dolğun təsəvvür yarada bilir. Milli- azadlıq hərəkatı və onun dövrləri haqqında geniş və hərtərəfli məlumat M.Ə.Rəsulzadənin «Azər-

baycan Cümhuriyyəti» (1) və M.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı» adlı əsərində verilmişdir (2).

Problemin dövrləri haqqında, S.Əliyarlının yazdığı «Milli hərəkatımızın ilkin dönəmləri» adlı məqaləsində də toxunulmuşdur. (3). Tələbələrin nəzərinə çatdırıram ki, bu müəllif əksər tədqiqatçılardan fərqli olaraq milli hərəkat tariximizin 1905-ci ildən başlamasını düzgün hesab etmir. Tarixi qaynaqların öyrənilməsi və təhlili göstərir ki, bu hərəkat XIX yüzilin 70-ci illərindən başlamışdır (3, 138). O, bu hərəkatı üç dövrə bölərək, I dövrü (1875-1905-ci illər) hərəkatın «başlanğıc dönəmi» adlandırır (3, 147). «Şərti olaraq «Əkinçi dövrü» adlanan bu illərdə hərəkatın başlıca ideya cücərtiləri dünyaya gətirilmişdir». (Yenə orada). Mən tələbələrin nəzərinə çatdırıram ki, bu dövr həm də milli oyanış, milli hərəkatın nəzəri əsasları və ideya prinsiplərinin yaranması dövrüdür.

Qeyd edim ki, professor X.Məmmədov da «Azərbaycan milli hərəkatı 1875-1918-ci illər» adlı əsərində (4) milli hərəkatı üç dövrə bölür. O, I dövrü 1875-1904-cü illər hesab edir. Tələbələrə hərəkatın I mərhələsinin 1904-cü ildə başa çatması fikrinin elmi, məntiqi cəhətdən daha doğru olduğunu izah edib, göstərirəm ki, X.Məmmədov I mərhələdə milli hərəkatın sosial-iqtisadi və siyasi təməlinə, maarifçilik hərəkatı və milli-mədəni inkişafa daha çox diqqət ayırır və bu dövrü milli hərakatın oyanışı dövrü adlandırır.

Doğrudur, milliyyətcə polyak olan görkəmli Amerika alimi T.Svietoçovski öz əsərində oyanışı Azərbaycan tədqiqatçılarından fərqli olaraq 1905-ci il rus inqilabından sonrakı dövrə aid edir. (5, 65)

Bu tezisi elmi cəhətdən əsaslandıraraq tələbələrə izah edirəm ki, milli hərəkatın oyanışı dövrü barədə S.Əliyarlının, X.Məmmədovun fikirləri daha doğrudur.

Milli azadlıq hərəkatının II dövrü S.Əliyarlının fikrincə 1905-1917-ci illəri əhatə edir. Dövrün xarakteristikasını qısa verməк istəsək deməliyəm ki, bu mərhələdə «hərəkat açıq siyasi mübarizə səhnəsinə çıxaraq öz siyasi tələblərini Rusiya imperatorluğunun yüksək dövlət idarələri (Dövlət Duması, və b.) qarşısında qoydu, öz məramının həyata keçirilməsi yolunda çarpışan siyasi partiyalar (İttifaqi-Müslimin, Difai, Müsavat) şəklində təşkilat birlikləri yaratdı, xalq və onun ziyalıları arasında geniş hörmət qazandı. («Molla Nəsrəddin» jurnalı ətrafında birləşənlər və başqaları)» (3, 147). Zənnimizcə, müəllif burada 1915-ci ildə nəşrə başlayan «Açıq söz» qəzetini və milli hərəkatın ümummillətçilikdən türkçülüyə keçidi üçün ilkin əsaslı iş görüldüyünü də əlavə etsəydi daha doğru olardı.

S.Əliyarlıdan fərqli olaraq X.Məmmədov hərəkatın II dövrünü «I rus inqilabı və milli hərəkatın yüksəlişi» adlandırır və onu 1905-1914-cü illərə aid edir (4, 46). O, bu mərhələdə I rus inqilabının, erməni-azərbaycanlı münaqişəsinin milli demokratik fikrə, milli hərəkatın inkişafına təsirini, «Müsavat» partiyasının yaranmasını önə çəkir.

Digər tədqiqatçı T.Svietoçovski isə milli hərəkatın bu dövrünü 1905-1917-ci ilin fevralına qədər hesab edir. O, öz əsərində həmin dövrü «1905-ci il inqilabı və Azərbaycanda siyasi oyanış», «Savaş və inqilablar zamanı: ideologiyalar və siyasi cərəyanlar» başlıqları altında vermişdir (5: 65, 97). Tələbələrin nəzərinə çatdırıram ki, bu tədqiqatçının digər araşdırıcılardan fərqi ondadır ki, o 1905-1911-ci illər İran inqilabı dövründə Güney Azərbaycanda baş verən proseslərin, həmçinin

Osmanlı imperatorluğunda cərəyan edən gənc türklər hərəkatının bütövlükdə Azərbaycan milli hərəkatına, milli oyanışa, azərbaycançılıq hisslərinin formalaşmasına təsirini də vermişdir. Doğrudur, bu zaman o xalqda yaranmış azərbaycanlılıq hisslərini «Panazərbaycanizm» kimi verir. Ancaq auditoriyaya «panslavyanizm», «pantürkizm» və s. bu kimi cərəyanlar haqqında məlumat verib «panazərbaycan» ifadəsinin doğru olmadığını izah edirəm. Sonra tələbələrə bildirirəm ki, professor C.Həsənli də Səttarxanın anadan olmasının 130 illiyi münasibətilə yazdığı «Güneydə doğan Günəş» adlı məqaləsində (6) bu hərəkatın Quzeydəki milli hərəkatla əlaqələrinə, qarşılıqlı təsirinə toxunmuşdur.

S.Əliyarlı bəhs etdiyimiz məqaləsində göstərir ki, milli hərəkatın III mərhələsi 1917-ci ilin mart-oktyabr ayları arasındakı dövrdür. (Bax: 3, 147). O, qeyd edir ki, bu dövrdə «...milli hərəkat Rusiyanı demokratik federasiyon cümhuriyyətə çevirmək, onun tərkibində Azərbaycan türklərinin milli muxtar cümhuriyyətini yaratmaq məramına yüksəldi, «İslamçılıq» buxovunu qırıb atdı.

Tam müstəqil demokratik Azərbaycan milli dövlətinin yaradılması məramına buradan yalnız bir addım qalırdı». (Yenə orada).

Digər tədqiqatçı X.Məmmədov belə hesab edir ki, milli hərəkatın III dövrü 1914-1918-ci illəri əhatə edir (4, 111). O, bu dövrü «I dünya müharibəsi illərində milli hərəkatın təkamülü. (1914-1918)» başlığı altında vermiş və burada müharibə dövründə Azərbaycanın sosial-siyasi və iqtisadi həyatına, Fevral inqilabından sonra istiqlal mübarizəsinin ümummilli prosesə çevrilməsinə, milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizəyə toxunmuşdur.

T.Svietoçovskinin fikrincə isə milli hərəkatın III dövrü 1917-ci ilin fevralından başlayıb Milli Dövlətin yaranmasıyla başa çatır. Onun fikrincə, bu dövr özüdə iki yerə bölünür: «ozerklik arayışı içində ulusun oluşumu» adlanan I dövr-fevral 1917 – yanvar 1918-ci il; II dövr «Transkafkasiya Federalizmi» – fevral 1918 – may 1918-ci il.

Qeyd edim ki, A.Balayev milli hərəkatın bu dövrünə aid olduqca maraqlı, əhatəli bir tədqiqat aparmışdır (7). Digər tədqiqatçılardan fərqli olaraq o belə hesab edir ki, milli hərəkatın III dövrü 1917-ci ilin fevralından 1918-ci ilin dekabrına qədər davam edir. O, «1917-1918-ci illərdə Azərbaycan milli hərəkatı» adlı əsərində milli hərəkatın bu mərhələsini bir-biri ilə əlaqəli olan 3 dövrə bölür: I - Fevral 1917- mart 1918; II - mart – may 1918; III – may – dekabr 1918.

A.Balayevin əsərinin yaxşı cəhəti orasındadır ki, o, milli hərəkatın III dövrünü bir tərəfdən nə üçün belə xronoloji çərçivəyə saldığını izah edir, digər tərəfdən hər bir dövr haqqında ətraflı izahat verir (Bax: 7, 6-19).

Tələbələrə milli-azadlıq hərəkatının üç dövrü haqqında məlumat verdikdən sonra bildirirəm ki, apardığım tədqiqatlar və təhlillər göstərir ki, əslində bu hərəkat üç yox, dörd dövrə bölünür:

I – 1875 – 1904; II – 1905 – 1917; III – fevral 1917 – dekabr – 1918; IV – 27 aprel 1920 – 18 oktyabr 1991-ci il. Sonra onlara IV dövr və onun xüsusiyyətləri barədə qısa məlumat verirəm.

Mühazirədə problemlə bağlı sovet dövründə yazılan əsərlərin təhlilinə də yer verilməsini zəruri hesab edirəm. Bundan başqa, qaynaqları təsnifata ayırıb buna uyğun təhlil aparılması da zəruridir.

Beləliklə, mövzunun birinci sualını izah edib qurtardıqdan sonra auditoriyanın hazırlıq səviyyəsini, tələbələrin dərsi dinləmək həvəsini və

s. amilləri nəzərə alıb onlara belə bir sualla müraciət edirəm: Bəhs etdiyimiz dövrdə hansı ölкələrdə milli-azadlıq hərəкatı, inqilab baş vermişdir? Bu sualın cavabına təxminən 2 dəqiqə vaxt ayırmaq olar. Belə üsulla tələbələr bir anlığa həm dincəlir, həm də növbəti sualı qavramaq və dinləməк üçün bütün diqqəti səfərbər olunur.

Məlumdur кi, dərsdə əyani vəsaitdən, texniкi vasitələrdən istifadə edilməsi mövzunun daha yaxşı mənimsənilməsinə müsbət təsir göstərir. Ona görə iкinci sualı izah edərкən aşağıdaкı sxemdən istifadə edirəm:




Bu sxem əsasında II sualı tələbələrə izah edib göstərirəm кi, milli-azadlıq hərəкatının başlanması təsadüfi olmayıb, çar Rusiyasının Azərbaycanda on illərlə yeritdiyi müstəmləкə siyasətinin obyeкtiv, qanunauyğun nəticəsi olmuşdur.

Bundan başqa tələbələrə izah edirəm кi, Azərbaycanda baş verən proseslər təsadüfi olmayıb Rusiyada, regionda və nəhayət Avropada cərəyan edən hadisələrlə sıx bağlı olmuşdur, yəni bu bir tarixi prosesin, tarixi qanunauyğunluğun nəticəsidir.

Qeyd edəк кi, mövzu izah olunarкən bir neçə belə sxemdən istifadə etməк olar. Məsələn, dördüncü sual izah olunarкən aşağıdaкı sxem daha məqsədəuyğundur:



Təcrübə göstərir кi, sxemlərdən istifadə edərкən auditoriyanın səviyyəsi, müxtəlif xüsusiyyətləri nəzərə alınsa bunun mövzunun mənimsənilməsinə daha çox təsiri olar.

**ƏDƏBİYYAT**


1. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B., 1990.
2. Məmmədzadə M.B. Milli Azərbaycan hərəкatı. B., 1992.
3. Əliyarlı S. Milli hərəкatımızın ilкin dönəmləri. «Azərbaycan» jurnalı, 1992, №9-10.
4. Məmmədov X. Azərbaycan milli hərəкatı. 1875-1918-ci illər.
5. Svietoçovsкi T. Müslüman cemaatten ulusa кimlige. Rus Azərbaycanı. 1905-1920. İstanbul, 1988.
6. Həsənli C. Güneydə doğan Günəş. «Azadlıq» qəz., 19 iyul, 1997-ci il.
7. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Б., 1998.


**ИЗ ОПЫТА ИЗУЧЕНИЯ ТЕМЫ «НАЦИОНАЛЬНО -ОСВОБОДИТЕЛЬНОЕ ДВИЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ» В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ**

**Б.О.АЗИЗОВ**

**РЕЗЮМЕ**

Данная статья посвящена преподаванию в вузах одной из малоизученных в последние годы тем, в частности, темы национально – освободительное движение. В статье дается актуальность темы, план лекции и использования наглядных пособий в процессе изучения данной темы. Автор в статье также затрагивает моменты связанные с периодизацией темы, делает интересные обобщения и выводы.

**FROM EXPERİENCE OF STUDİNG NATİONAL LİBERATİON MOVEMENT İN AZERBAİJAN İN HİGH SCHOOL**

**B.O.AZİZOV**

**SUMMARY**

This article is devoted to teach in high school is not enough studing topic lately such as national liberation movement in Azerbaijan. Urgency of the topic, plan, method and the list of using booкs during study of the topic are given in this article. The author also opened the subject connected with periodization of the topic,did general conclusion and resume.